## AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT QULLUĞUNU İDARƏETMƏ ŞURASI YANINDA KORRUPSIYAYA QARŞI MÜBARIZƏ ÜZRƏ KOMISSIYANIN

# Q Ə R A R I

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya (bundan sonra "Komissiya") 2005-ci il 27 dekabr tarixdə keçirilmiş iclasında müzakirə edilmiş məsələlər üzrə aşağıdakıları qərara alır:

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli Sərəncamına əsasən Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) yerinə yetirilməsi ilə əlaqədar ikinci altı ay ərzində görülən işlər barədə məlumatlar Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin (əlavə olunur).

2. Son aylar ərzində Səhiyyə Nazirliyi sistemində həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri, əsaslı kadr islahatları, struktur dəyişiklikləri, təşkilati və praktiki tədbirlər, həkimlərin şəffaf əsaslarla işə qəbul edilməsi üçün görülmüş işlər təqdirəlayiq hesab edilsin. Səhiyyə orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi :

2.1. səhiyyə sistemində icbari tibbi sığortanın tətbiq edilməsi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərini hazırlasın;

2.2. həkimlərin statusunun qanunvericiliklə müəyyən edilməsi üçün təkliflərini hazırlasın;

2.3. həkimlərin qulluğa qəbulunun şəffaflıq və obyektiv şərtlər əsasında həyata keçirilməsi üçün görülən tədbirləri başa çatdırsın;

2.4. görülmüş tədbirlər barədə Komissiyaya məlumatlar təqdim etsin.

3. Son il ərzində dövlət tərəfindən təhsil müəssisələrinin idarə edilməsi, onlara maliyyə müstəqilliyinin verilməsi, müasir dərslik siyasəti, müəllim hazırlığı, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün vacib tədbirlər görülmüşdür. Lakin təhsil müəssisələrində rüşvət halları, müəllimlərin təyin edilməsi prosesində şəffaflığın olmaması, müəllimlərin maaşlarının aşağı olması, təhsil işçilərinin hazırlanması və məktəblərin maddi-texniki təminatı ilə bağlı problemlər hələ də qalmaqdadır. Bu nöqsanların səbəblərindən biri də yerli icra hakimiyyəti orqanlarının müəllimlərin problemləri, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və onların ehtiyaclarının

təminatı ilə ciddi məşğul olmamasıdır. Təhsil orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə:

3.1. Azərbaycan Respublikasının Milli Məclisindən xahiş edilsin ki, "Təhsil haqqında" yeni qanunun qəbul edilməsi işini sürətləndirsin;

3.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

3.2.1. təhsilin keyfiyyətinin artırılması və bu məqsədlə yeni metod və texnologiyalardan istifadə olunması üçün əsaslı islahatlar həyata keçirsin;

3.2.2. təhsil sistemində, xüsusilə ali təhsil müəssisələrində korrupsiyaya qarşı mübarizə sahəsində ciddi tədbirlər görsün;

3.2.3. məktəblərdə təlim-tərbiyə işlərində əsaslı dönüş yaratsın;

3.2.4. bütün sahələrdə şəffaflığı təmin etsin;

3.2.5. təhsil orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün digər zəruri tədbirlər görsün;

3.2.6. konkret nəticələr barədə Komissiyaya məlumatlar təqdim etsin.

4. Korrupsiyaya qarşı mübarizə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə Komissiyanın tərkibində yaradılmış qanunvericiliyin təkmilləşdirilməsi üzrə işçi qrupu:

4.1. iki ay müddətində vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması barədə qanun layihəsini Komissiyaya təqdim etsin;

4.2. hüquqi şəxslərin cinayət məsuliyyəti ilə bağlı qanun layihəsinin hazırlanması işini sürətləndirsin.

5. Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və onların fəaliyyətində şəffaflığın artırılması məqsədi ilə:

5.1. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və bələdiyyələr 2005-ci il 30 sentyabr tarixdə qəbul edilmiş "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin və tələblərin bu orqanlarda çalışan şəxslər tərəfindən öyrənilməsi üçün müvafiq treyninqlər və ya tədris kursları təşkil etsinlər, həmçinin bu sahədə vətəndaşlar arasında maarifləndirmə tədbirləri həyata keçirsinlər;

5.2. Dövlət və bələdiyyə orqanları informasiya əldə etmək haqqında yeni qanunvericiliyə uyğun olaraq mətbuat xidmətlərinin işini təkmilləşdirsinlər və mütəmadi olaraq öz fəaliyyətləri barədə ictimaiyyətə məlumatların verilməsini təmin etsinlər.

6. Komissiyanın 2005-ci il 27 dekabr tarixdə keçirilmiş iclası ilə bağlı mətbuatda məlumat dərc edilsin.

**7. Komissiyanın Katibliyi yuxarıda göstərilən məsələlər üzrə Komissiyanın tövsiyələrinin həyata keçirilməsi vəziyyəti haqqında Komissiyaya məlumat təqdim etsin.**

**Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri**

**R.Mehdiyev**

**Bakı şəhəri, "_27_" "_dekabr_" 2005-ci il**

**№ _6_**